# QƏRAR № 4/13

# 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində seçki məntəqələrində veb-kameraların quraşdırılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) tələblərinə əsasən seçkilərin hazırlanıb keçirilməsində ən mühüm meyarlardan biri də prosesin bütün mərhələlərinin ictimaiyyət üçün şəffaf olmasıdır.

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin qanunvericiliyin tələbləri və müasir standartlara cavab verən səviyyədə hazırlanıb keçirilməsi üçün bir sıra addımlar atılmış, seçki prosesinin iştirakçılarına qanunvericilikdə ehtiva olunan hüquqlarının icrası üçün hərtərəfli şərait və geniş imkanlar yaradılmışdır. Çoxsaylı müşahidəçilər, o cümlədən media subyektlərinin nümayəndələri və müxtəlif aşkarlıq institutları da seçki kampaniyasında azad və sərbəst şəkildə iştirak edirlər.

Seçkilərdə müxtəlif metod və vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərinin də səmərəli tətbiqi ilə seçki prosesinin bir çox mərhələlərində, o cümlədən səsvermə günü şəffaflığın daha geniş təminatı üçün şərait yaradılır.

Qanunvericilikdə nəzərdə tutulan müxtəlif imkanlarla bərabər, seçki günü internet üzərindən veb-kameralar vasitəsilə də seçki məntəqələrindəki proseslərin gedişinin canlı görüntüləri hər kəs üçün açıq platformada yerləşdirilir. Bu vasitə ilə internet istifadəçiləri də seçki məntəqələrindəki prosesləri heç bir qeydiyyat tələbi olmadan rəqəmsal qurğular üzərindən bütünlüklə, fasiləsiz real vaxt rejimində, dolğun və əhatəli izləmək imkanına malik olurlar.

Veb-kameralardan istifadə təcrübəsi 2008-ci ildən etibarən Azərbaycanda keçirilən seçki və referendumlarda müvəffəqiyyətlə tətbiq olunur. Bu layihə çərçivəsində 1000 seçki məntəqəsində quraşdırılan veb-kameralar seçki günü seçki məntəqələri fəaliyyətə başladığı vaxtdan, səsvermə prosesi, məntəqə seçki komissiyalarının üzvləri tərəfindən seçki sənədləri ilə işin aparılması, səslərin hesablanması, səsvermənin nəticələrinin müəyyənləşdirilərək rəsmiləşdirilməsi də daxil olmaqla, bütün prosedurların asanlıqla müşahidəsinə, aşkarlığın və şəffaflığın ən yüksək səviyyədə təmin olunmasına imkan yaradır.

Aşkarlığın təmin edilməsinə yönəlmiş bu layihənin yaratdığı imkanlardan bəhrələnməklə ictimaiyyətin seçki günü səsvermənin gedişini veb-kameralar üzərindən də müşahidəsinin təmin olunması və bu prosesin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) özündə ümumi qaydaları ehtiva edən "Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsi Qaydaları"nı qəbul etmişdir.

Seçki günü proseslərində şəffaflığın daha da artırılmasına verdiyi töhfə və əldə olunmuş müsbət təcrübəni nəzərə alaraq, 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində də sözügedən layihənin tətbiqi məqsədəmüvafiqdir. Keyfiyyətli və fasiləsiz yayım üçün zəruri olan texniki və digər şərtlər nəzərə alınmaqla, respublikada bələdiyyə seçkiləri keçirilən 118 seçki dairəsi üzrə 1000 (bir min) seçki məntəqəsində veb-kameralar quraşdırılmalı və həmin seçki məntəqələrinin siyahısı dərc olunmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.16-cı, 28.2-ci, 28.4-cü, 40.1-ci və 110-cu maddələrinə, "Seçki məntəqələrində veb-kameraların quraşdırılması və istifadəsi Qaydaları"nın 1.1-ci və 2.2-ci bəndlərinə uyğun olaraq **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində səsvermə günü seçki məntəqələrində səsvermə prosedurları, səsvermənin yekunlarının müəyyənləşdirilməsi və nəticələrinə dair protokolun doldurulmasının əvvəldən axıradək fasiləsiz müşahidəsi məqsədilə bələdiyyə seçkiləri keçirilən 118 seçki dairəsi üzrə 1000 (bir min) seçki məntəqəsində veb-kamera quraşdırılsın.

2. Veb-kameraların quraşdırılması üçün zəruri olan texniki və digər şərtlərin təmin olunması istiqamətində müvafiq tədbirlər görülərək başa çatdırılsın.

3. Veb-kamera quraşdırılan seçki məntəqələrinin siyahısı dərc edilsin *(siyahı əlavə olunur).*

4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*21.01.2025*

Azərbaycan.- 2025.- 22 yanvar (№ 13).- S.8.